# İslamdan Öncəki Uyğur Dastanları



**Elşən Mirişli**
*Gəncə şəhəri, tarixçi*

### Doqquz Oğuz

***VI yüzilllikdən etibarən Göytürklərin idarəsində toplanan Türk tayfalarından bir qismi kimi Doqquz Oğuzlar da aralarında birlik quraraq Tuğla-Selenqa çayları bölgəsində Doqquz Oğuz xaqanlığı meydana gətirdilər.***

***Doqquz Oğuz Türk tayfaları indiki Türküstanın şərq hissəsinə ( Turfan ) sahib idilər. 794-cu ildə bu ərazini tibetlər,866-cı ildə uyğurlar tutmuşdu və bu ad uyğurlara keçmişdi.***

### Uyğur Dastanları

Uyğur dastanlarında da əsas ünsürlər “ mavi işıq”, ”qurd” və “anayurd”dur.Bu dastanlar bir qarış torpağını, bir tək daşını da qurban verməmək gərəkliyindən bəhs edir. “Doqquz Oğuz-On Uyğur” Türklərinin iki dastanı vardır.Birinci dastan uyğurların yaranması ilə bağlıdır və bu onların bir qurddan törədiklərini anladır. İkincisi “Köç dastanı”dır. Uyğurların Ötükəndən Tarım hövzəsinə nə üçün köçmək məcburiyyətində qaldıqlarından danışır.Birinci dastan Çin qaynaqlarında, ikinci dastan isə həm Çin, həm İran qaynaqlarında yer tutmaqla,bir-birini tamamlamaqdadır. İkinci dastanın bir özəlliyi də xaqanların pis idarəsi və milli birliyin pozulması halında yurdun necə itiriləcəyini göstərməsidir.

Uyğur dastanları Doqquz Oğuzun-Uyğur Türklərinin dastanlarıdır və iki dastandan ibarətdir “Törəyiş dastanı” və “Köç dastanı”.

### Uyğurların Törəyiş dastanı

Əski Hun padşahlarından birinin çox gözəl iki qızı varmış.Bu qızlar o qədər gözəlmişlər ki, hətta padşah Allahın onları Tanrıların evlənməsi üçün yaratdığına inanırdı. Qızların ataları olan başçı belə düşünərdi.Onun üçün qızlarını insanlardan uzaq tutmaq,Tanrıya vermək istədi. Bu məqsədlə ölkənin quzey bir yerində, yüksək bir qüllə tikdi və iki qızını buraya qapatdı.Bundan sonra gecə-gündüz qızların evlənməsi üçün Göy Tanrıya yalvarmağa başladı.

Qızlar qüllədə həyat sürərkən ətrafda ixtiyar bir Bozqurd dolaşmağa başladı.Bozqurd başını qülləyə çevirir, qorxunc bir şəkildə ulayır,ulayırdı. Sonra özünə qüllənin dibində bir yuva qurdu. Qülləni qorumağa,ulamağa davam etdi.

Qızlardan kiçiyi bu bozqurdun qurd cildinə girmiş Göy Tanrıdan başqası olmayacağını söylədi və bacısını aşağı enməyə razı saldı. İki qız aşağıya endilər.

Dünya gözəli iki qızın qurdla birləşmələrindən Doqquz Oğuz-On Uyğur cocuqları doğuldu. Bu evlənmədən Doqquz Oğuzun Uyğur eli meydana gəldi. Bu cocuqların səsi bozqurd səsinə bənzəyirdi.Nərə çəkdikləri və mahnı söylədikləri zaman qurd kimi səs çıxarırdılar.

Doqquz Oğuz-On Uyğurların ataları bu cocuqlardı.

### Köç Dastanı

Uyğur elinde Xulin adında bir dağ vardı.Tuğla və Selenqa adlı iki çay bu dağdan axardı.Bu iki çayın arasında bir ağac vardı. Bir gecə bu iki irmaq arasındakı ağacın üzərinə göydən mavi bir işıq düşdü.İki çay arasında yaşayan xalq bunu diqqətlə, maraqla izlədi. Ağacın gövdəsi getdikcə qabarır, şişir, içindən gözəl musiqili səslər gəlirdi. Müqəddəs işıq gecələri ağacın gövdəsini aylarca aydınlatdı. Nəhayət doqquz ay qədər bir zaman keçdi, ağacın gövdəsi genişlənib yarıldı və içindən beş cocuq çıxdı.Ölkə xalqı bu cocuqları alıb böyütdü.Ən kiçiklərinin beşincisinin adı Buğu tegin idi. Çox ağıllı və gözəl idi.Buğu tegin böyüyüb xaqan oldu və hamını hökmü altına aldı.

Otuz köbəkdən uzun bir zaman keçdildən sonra bu dəfə Yulun tegin xaqan oıldu. Çinlilərlə çoxlu savaş etdi. Sonra bu savaşlara bir son vermək üçün oğlu Qalı tegini Çin hökmdar ailəsindən Kiyu-Liyən adlı bir şahzadə ilə evləndirməyə qərar verdi.Uyğur xaqanı çinlilərlə savaşa son vermək üçün oğlunu Çin şahzadəsi ilə evləndirdi.

***Bu şahzadə Qalı tegin sarayı Xatun dağında qurdurdu. Oralarda bundan başqa Tanrı dağ ilə bu dağın güneyində Uğurlu dağ deyilən dağ biçimində böyük bir qaya vardı. Çin elçiləri baxıcılarla birlikdə Xatun dağına gəldilər.Bunlar araşdırma apardıqdan sonra öz aralarında belə danışdılar: ‘Xatun dağının,Uyğur ölkəsinin xoşbəxtliyi bu qayaya bağlıdır.Bu dövləti yox etmək üçün bu uğurlu qayanı yox etməliyik’.Uğurlu qaya yurd bütövlüyünün rəmzi olan olan uğurlu ‘Yaddaş daşı’ idi.Çin səfirləri gəldilər və dedilər ki,uyğurların sədəti bu qayaya bağlıdır.Bu qayanı aparsaq,uyğurlar bədbəxt olar.***

Çin elçiləri Uyğur xaqanından gözəl şahzadələri müqabilində bu qayanın onlara verilməsini istədilər.Başçı (tegin) buna razı oldu.Türk ölkəsinin,türk millətinin bütövlüyü üçün bir rəmz olan bu uğurlu daşı (Qutlu dağı) çinlilərə verməyi pis bir şey saymadı. Qaya yerindən oynadılacaq qədər böyük və ağırdı.Çinlilər qayanın ətrafına odun yığaraq odladılar.Yaxşıca qızdırdıqdan sonra üstünə tünd sirkə töküb parçaladılar.Sonra o parçaları,bir dənəsini belə qoymadan arabalara doldurub öz ölkələrinə apardılar.Bu çox böyük bir olaydı. Hər yana hüzn çökdü.Yurddakı bütün quşlar, heyvanlar bu qayanın gedişinə öz dillərincə ağladılar.

Bu olaydan yeddi gün sonra başçı (tegin) öldü.Bundan sonra da fəlakətlər bir-birini izlədi. Xalq rahat gün görmürdü. İrmaqlar, göllər qurumuş, susuzluqdan çatlayan torpaqlar bar verməz olmuşdu.Yulun tegindən sonra taxta çıxanların heç biri uzun yaşamadı. Qıtlıq oldu.O zaman bütün quşlar və heyvanlar “Köç-köç” deyə, bağırdılar və uyğurlar köç etməyə qərar verib, yola çıxdılar. Hər yerdə duranda yenə o səsi eşitdilər.Buna görə hökmdarlar paytaxtlarını Xoçuya köçürməyə qərar verdilər və oradan Beş-Balığa qədər olan yerləri hakimiyyəti altına aldılar. Nəhayət, Beşbalık deyilən yerdə o səs kəsildi və uyğurlar orada qalıb şəhər saldılar və Beşbalıkı və ayrı şəhərləri qurdular.Bu dastana görə,uyğurlar özlərini Tanrının soyundan bilib,yurdu pis idarə edən xaqanların üzündən məruz qaldıqları fəlakətləri anladır.

Yuxarıdakı hissə dastanın Çin qaynaqlarındakı şəklidir. İran qaynaqlarında əlavə və fərqli olaraq bunlar verilir:

Beş cocuğun böyükdən kiçiyə adları belə idi: Sunqur Tegin, Kutur Tegin,Tükəl Tegin,Ur Tegin, Böğü Tegin.Ən gözəl,ən ağıllısı və bacarıqlısı Böğü Tegin idi.Onu xaqan seçdilər.

Tanrı ona üç qarğa vermişdi.Bu qarğalar bütün ölkədə olub-olanı xəbər verirdilər.Bir gecə Böğü xaqan yatarkən pəncərəsindən otağa bir qız girdi.Böğü xaqan qorxdu,amma səs çıxarmadı.Bu qız ikinci gecə və üçüncü gecə təkrar gəldi.Buna görə xaqan röyasını vəzirinə danışdı və vəzir də ona qızla görüşməsini, danışmasını tövsiyyə etdi.

Böğü xaqan yuxuda gələn o qızla hər gecə Ağ dağa gedərək gəzməyə başladı. Günlərdən sonra Böğü xaqanın yuxusuna bu dəfə ağ saqqallı, ağ əsalı bir ixtiyar girdi.Ona fısdıq şəklində və böyüklüyündə bir üzük daşı verərək dedi: “Bu daşı saxladığın müddətə qədər dünyanın dörd tərəfinə hakim olacaqsan”.

***Aradan vaxt keçdi. Böğü Xaqanın cocuklarından biri xaqan oldu. Onun zamanında yurdun bütün heyvanları, canlı, cansız bütün varlıqları dilə gəlib, dərin bir üzüntüylə “Göy!”Göy!”- deyə bağırmağa başladılar.Bunu ilahi bir işarət,bir əmr sayan uyğurlar da yurdlarını buraxıb yollara düşdülər. Haraya getsələr, harada dursalar da heyvanların ‘Göy! Göy!” səsləri kəsilmirdi.Köçə davam etdilər, Beş-Balığın olduğu yerə gəldikləri zaman səslər kəsildi. Onlar da: ‘Dəmək yurd tutacaq yer bu yermiş ’- deyə orada qaldılar.Olduqları yerdə beş məhəllə saldılar. Məhəllələr böyüdü şəhər oldu və şəhərin adını Beş-Balık qoydular.***



*Uyğur elində Xulin adında bir dağ vardı.Tuğla və Selenqa adlı iki çay bu dağdan axardı.Bu iki çayın arasında bir ağac vardı. Bir gecə bu iki irmaq arasındakı ağacın üzərinə göydən mavi bir işıq düşdü.İki çay arasında yaşayan xalq bunu diqqətlə, maraqla izlədi. Ağacın gövdəsi getdikcə qabarır, şişir, içindən gözəl musiqili səslər gəlirdi. Müqəddəs işıq gecələri ağacın gövdəsini aylarca aydınlatdı.*

*Bu olaydan yeddi gün sonra başçı (tegin) öldü.Bundan sonra da fəlakətlər bir-birini izlədi. Xalq rahat gün görmürdü. İrmaqlar, göllər qurumuş, susuzluqdan çatlayan torpaqlar bar verməz olmuşdu.Yulun tegindən sonra taxta çıxanların heç biri uzun yaşamadı. Qıtlıq oldu.O zaman bütün quşlar və heyvanlar “Köç-köç” deyə, bağırdılar və uyğurlar köç etməyə qərar verib, yola çıxdılar. Hər yerdə duranda yenə o səsi eşitdilər.Buna görə hökmdarlar paytaxtlarını Xoçuya köçürməyə qərar verdilər və oradan Beş-Balığa qədər olan yerləri hakimiyyəti altına aldılar*

*Uyğur dastanlarında da əsas ünsürlər “ mavi işıq”, ”qurd” və “anayurd”dur.Bu dastanlar bir qarış torpağını, bir tək daşını da qurban verməmək gərəkliyindən bəhs edir. “Doqquz Oğuz-On Uyğur” Türklərinin iki dastanı vardır.Birinci dastan uyğurların yaranması ilə bağlıdır və bu onların bir qurddan törədiklərini anladır. İkincisi “Köç dastanı”dır. Uyğurların Ötükəndən Tarım hövzəsinə nə üçün köçmək məcburiyyətində qaldıqlarından danışır*